# TANINMIŞ ALİM, PEŞƏKAR MÜƏLLİM



Nizami Gəncəvi müəllimi günəşə bənzədirdi. Ulu öndərimiz də müəllimə həmişə yüksək qiymət vermiş, müəllim haqqında gözəl sözlər söyləmişdir. Onun müəllim haqqında dediyi "müəllim yeganə şəxsiyyətdir ki, cəmiyyət özünün gələcəyini- uşaqların tərbiyəsini yalnız ona etibar edir" fikri müəllimə verilmiş ən gözəl tərifdir. Belə xoşbəxt insanlardan biri də Azərbaycan Dövlət Aqrar Universitetinin Magistr mərkəzinin direktor müavini, kənd təsərrüfatı texnikası və yerüstü nəqliyyat vasitələri kafedrasının professoru, Beynəlxalq Təhsil Akademiyasının üzvü, Məmmədov Nürəddin Nəcəf oğludur. O, 1918-ci ildə Göyçə mahalından, millətçi erməni daşnaklarının təzyiqinə məruz qalaraq, qaçqın düşmüş və Gədəbəy şəhərində məskunlaşmış kasıb ailədə, 7 oktyabr 1937-ci ildə dünyaya gəlmişdir. Azyaşlı uşaq evdə anasına və atasına kömək eləyir, gecələr lampa işığında kitab oxuyardı.

O, 1955-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun mexanikləşdirilməsi fakültəsinə qəbul olaraq, 1960-cı ildə müvəffəqiyyətlə bitirdi. Gənc mütəxəssis kimi, savad və yaradıcılıq qabiliyyəti nəzərə alınaraq, Azərittifaqın avtoekspedisiya bazasına mexanik göndərildi. 1961-ci ildə o, institutun kənd təsərrüfatı maşınları kafedrasına işə dəvət edildi. Bununla da onun alim kimi püxtələşməsinin təməli qoyuldu. Beləliklə, o, 1963-cü ildə Azərbaycan Kənd Təssərüfatı İnstitutunda kənd təsərrüfatı istehsalatının mexanikləşdirilməsi ixtisası üzrə aspiranturaya daxil olub, 1966-cı ildə oranı müvəffəqiyyətlə bitirdi. Kənd təsərrüfatı maşınları kafedrasına assistent təyin edilir və bu sahədə elmi tədqiqatları genişləndirir. 1968-ci ildə Yerevan şəhərində "Azərbaycan SSR şəraitində pambığın yaxın yuva üsulu ilə səpən maşının iş prosesinin tədqiqi" mövzusunda dissertasiya müdafiə edərək, texnika elmləri namizədi adını aldı. Onun elmi-pedaqoji fəaliyyətindəki ustalığını nəzərə alaraq, 1976-cı ildə kənd təsərrüfatı maşınları kafedrasına baş müəllim, 1977-ci ildə dosent təyin etdilər. 1981-ci ildə "Torpaqbecərən alət", 1984-cü ildə "Pambıq toxumunu lifsizləşdirmək üçün maşın", 1991-ci ildə "Kombinə edilmiş aqreqat" ixtiralarının şəhadətnamələrini almışdır. Nürəddin müəllim dayanmadan elmi fəaliyyətini artırırdı. 1979-1983-cü illərdə kənd təsərrüfatının mexanikləşdirilməsi fakültəsinin dekan müavini, 1986-1987 -ci illərdə mexanikləşdirmə və elektrikləşdirmə fakültələrinin elmi işlər üzrə dekan müavini, 1994-1999-cu illərdə kənd təsərrüfatı maşınları kafedrasının müdiri, 2000-2005-ci illərdə akademiyanın ixtisasartırma fakültəsinin dekanı, 2009-cu ildən distant, əlavə təhsil mərkəzində baş mütəxəssis və hazırda magistr hazırlığı mərkəzinin direktor müavini vəzifəsində çalışır. Keçmiş SSRİ-nin ümumittifaq sərgisinin gümüş medalına layiq görülmüşdür. Müəllifi olduğu üç maşın Dövlət sınağından keçərək, fermerlərin və sakinlərin istifadəsindədir. Hazırda Nürəddin müəllim Azərbaycanda "Pambıq toxumunun yeni texnologiya əsasında səpinə hazırlanması və dəqiq səpini" mövzusunda elmi-tədqiqat işinə rəhbərlik edir. Bu məqsədlə ADAU-nun nəzdində eksperimental sex uzun müddət fəaliyyət göstərmişdir. Həmin eksperimental sexin yaradılmasında, maşın-mexanizmlərin quraşdırılmasında onun böyük əməyi vardır, eyni zamanda həmin qurğunun müəllifidir, hansı ki bu sexdə respublikanın pambıqçılıq rayonunda çalışan fermer təsərrüfatları üçün yüksək keyfiyyətli, ekoloji əhəmiyyətli pambıq toxumu hazırlanmışdır.

2003-cü ildə Azərbaycanda 052001-KT mexanikləşdirilməsi ixtisası üzrə texnika elmləri doktoru adını alan ilk alim olmuş və Azərbaycan Respublikası Prezidentinin təşəkkür məktubunu almışdır.

2010-cu ildə təşkilati bacarığını və kənd təsərrüfat kadrlarının yetişdirilməsindəki xidmətini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

2011-ci ildə Türk elminin inkişafındakı xidmətlərinə görə "Türk elminə xidmət" Beynəlxalq mükafatına layiq görülmüşdür.

Nürəddin müəllim eyni zamanda ictimai işlərdə fəallıq göstərmişdir. Azərbaycan Kənd Təsərrüfatı İnstitutu Partiya Komitəsinin katibi, 1983-1987-ci illərdə Kirovabad şəhəri Gəncə rayon Sovetinin deputatı seçilmişdir. Həmin illərdə institutda fəaliyyət göstərən şöhrət müzeyinin yaradılmasında onun xidməti olmuşdur.

Dünyanın ən nüfuzlu ölkələrində, Moskva, Sankt-Peterburq, Daşkənd, Tbilisi, Aşqabad, Tehran, Təbriz və sair universitetlərində elmi konfranslarda, beynəlxalq simpoziumlarda mühazirələr oxumuşdur.

Nürəddin müəllim təvazökar, xeyirxah və nəcib insandır. Tələbələrlə ünsiyyətdə olur, onların problemləri, sosial şəraiti ilə maraqlanır, təmənnasız yaxşılıq və kimsəsizlərə kömək etmək onun amalıdır. Məhz bu saf, zəngin mənəviyyatına görə respublikada fəaliyyət göstərən universitetlərin, yaşadığı şəhərin geniş ictimaiyyətinin və ziyalıların sevimlisinə çevrilmiş, böyük ehtiramını qazanmışdır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**